# İki şəhid qardaş - iki silahdaş

Lerik şəhərində Vətən müharibəsi şəhidləri Altay və Elgün Mövlanov qardaşlarının xatirəsinə həsr edilmiş "Xatirə - bulaq" kompleksinin açılış mərasimi keçirilmişdir. Mərasim iştirakçıları əvvəlcə şəhid qardaşların məzarlarını ziyarət edərək önünə əklil və tər gül-çiçək qoymuşlar.



Tədbirdə rayon icra hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev, rayon Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov, Vətən Müharibəsi Qəhrəmanı şəhid mayor Amid Heydərovun atası Rəbbil Heydərov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin rəisi polkovnik Arif Həsənov, Vətən müharibəsi iştirakçısı Nəbi Əhədov, şəhid qardaşların müəllimi Hacırza Quliyev çıxış edərək bu iki cəsur qardaşın qəhrəmanlıqla dolu həyat və döyüş yolundan danışmışlar.

Bildirilmişdir ki, şəhid qardaşların babaları Xanış Şahıyev sadə zəhmət adamı olub. Ümummilli Lider Heydər Əliyev onu dostu, qardaşı adlandırmış, bu əliqabarlı, dağ vüqarlı insana daim diqqət və qayğı göstərmişdir. Bu ailənin bir övladı I Qarabağ savaşında şəhidlik zirvəsinə ucalmış, iki oğlu isə ağır yaralanmışdır.

Altay Tahir oğlu Mövlanov 5 avqust 2000-ci, qardaşı Elgün isə 2 aprel 2002-ci ildə anadan olub. Hər iki qardaş Azərbaycanın ilk Milli Qəhrəmanlarından biri, I Qarabağ savaşında qəhrəmancasına şəhid olan Valeh Müslümovun adını daşıyan Lerik şəhər 2 saylı tam orta məktəbində təhsil alıb. Hələ məktəb illərindən idmana və hərb sənətinə xüsusi maraq göstərən qardaşlar yarışlarda iştirak edir, diplomlara layiq görülürdülər. Altay 2018-ci ildə Milli Ordu sıralarında xidmətə başlamış, 2020-ci ilin aprelində tərxis olunmağına baxmayaraq, öz arzu və istəyi ilə yenidən ordu sıralarına qayıtmışdır. Qardaşı Elgün də 2020-ci ilin aprelindən Milli Ordu sıralarına qatılmışdır.

Qüdrətli Azərbaycan Ordusu düşmən tapdağında olan torpaqlarımızın azadlığı uğrunda mübarizəyə başladığı ilk gündən Altay və Elgün silaha sarılaraq döyüşə atılmışlar. Elgün döyüşlərin 4-cü günü - sentyabrın 30-da şəhadətə qovuşmuşdur. Bu xəbəri qardaşına döyüş vaxtı çatdırmışlar. Ona dəfndə iştirak etmək üçün icazə verilsə də, Altay gözyaşı içində boğula-boğula demişdir: "Qardaşımın, döyüş dostlarımın qisasını almayınca geri bir addım da atmayacağam!"

Altay Mövlanov Füzuli uğrunda gedən qanlı döyüşlərdə düşmənin neçə-neçə canlı qüvvəsini, döyüş texnikasını məhv etmişdir. 13 oktyabr 2020-ci ildə Füzulinin Seyidəhmədli kəndi uğrunda döyüşlərdə isə qəhrəmancasına şəhid olmuşdur. Onun nəşi oktyabrın 30-da Lerik şəhərinə gətirilərək qardaşının yanında dəfn edilmişdir.

Prezidentin sərəncamları ilə Elgün Mövlanov "Vətən uğrunda", Altay Mövlanov isə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşlar. "Xatirə-bulaq" kompleksinin açılışında "Füzulinin azad olunmasına görə" medalı şəhidin valideynlərinə təqdim olundu.

Mərasimdə şəhid qardaşların atası Tahir Mövlanov, anası Sevda xanım, əmisi Mahir çıxış edərək şəhid ailələrinə göstərilən diqqət və qayğıkeşliyə görə dövlətimizə, Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

İki şəhid qardaş, iki silahdaş - Altay və Elgün! Onların hünər dolu həyat və döyüş yolu hər bir Azərbaycan vətəndaşı üçün əsl örnəkdir.

***Hüsaməddin ABBASOV,***
***Lerik***

Azərbaycan.- 2021.-7 avqust.- S. 7.